# PEDAQOQ - MAARİFÇİLƏRİN YARADICILIĞINDA TƏRBİYƏNİN ŞƏXSİ NÜMUNƏ ƏSASINDA HƏYATA KEÇİRİLMƏSİNİN ÜSUL, VASİTƏ VƏ TƏRZLƏRİ

## ("Pedaqoji fikir tarixindən" adlı əsər əsasında)



**Kamal Camalov,**
*Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının dosenti, pedaqogika elmləri doktoru, Əməkdar müəllim*
*e-mail: kamal.camalov@gmail.com*

**UOT:** 37

**Xülasə**. *Məqalədə "Pedaqoji fikir tarixindən" adlı əsərdən görkəmli nümayəndələrin tərbiyə işinə xalq və Vətən işi kimi baxmaları, tərbiyə işində nümunənin rolu, üsul, vasitə və tərzləri işinə baxışları tədqiq və təhlil süzgəcindən keçirilir. Tədqiqatçı tərəfindən vurğulanır ki, söz mülkünün sultanları valideyn-övlad tərbiyəsi, yetişən nəslin təhsili, təlimi, onların əxlaqının saflaşdırılması, mənəvi keyfiyyətlərinin yetkinləşdirilməsi, halal əməyə alışdırılması, qeyrətli-namuslu vətəndaşlar kimi yetişdirilməsi ilə bağlı yazılarında məktəb və pedaqoji fikir tarixinin zənginləşdirilməsinə öz misilsiz xidmətləri ilə imza atmışlar. Həmçinin məqalədə, korifeylərin mənəvi dəyərlərə baxışı uşaqların tərbiyəsinin mühüm vasitəsi kimi təhlil edilmiş, tərbiyəvi tədbirlər prosesində bu materiallardan istifadə edilməsinin imkan və yolları müəyyənləşdirilmiş və bu sahədə qabaqcıl təcrübə ümumiləşdirilmişdir.*

***Açar sözlər:*** *pedaqoji fikir tarixinin görkəmli nümayəndələri, gələcəyimiz və məbədgahımız, vətənin və xalqın tərəqqisi, tərbiyənin mahiyyəti, fikir və görüşlər.*
***Key words:*** *outstanding representatives of the history of pedagogical thought, our future and our temple, the progress of the homeland and the people, the essence of upbringing, ideas and meetings.*
***Ключевые слова:*** *выдающиеся представители истории педагогической мысли, наше будущее и наш храм, процветание Родины и народа, сущность образования, идеи и встречи.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş, oxunması zəruri olan kitabların əhəmiyyəti çox böyükdür. Bu kitablar yeniyetmə və gənclərin şüurlu həyat yaşamasına, peşəyə düzgün istiqamətləndirilməsinə kömək edir. İnsana öz ləyaqətini düzgün qiymətləndirməsinə, onun özünü, kimliyini dərk etməsinə, həyatın mənasının nədən ibarət olduğunun aşılanmasına kömək edən kitablardan biri də "**Pedaqoji fikir tarixindən**" adlı kitabdır.

Kitabda dünya xalqlarının çoxəsrlik tarixi boyunca gənc nəslin tərbiyəsi ilə bağlı zəngin pedaqoji fikirlər toplanılmışdır. Bu mənəvi, əxlaqi-pedaqoji sərvətləri öyrənmək, onları pedaqoji təfəkkür süzgəcindən keçirdib müasir gəncliyin tərbiyəsində istifadə etmək və məktəb təcrübə-

sinə gətirmək pedaqoji fikir tarixində ciddi problemlərdən biri olmuşdur. Çünki yeni pedaqoji fikir keçmişin mütərəqqi irsi ilə orijinal fikirlərin sintezindən yaranır. Ona görə də təlim və tərbiyənin yeni konsepsiyasını, inkişaf tendensiyasını müəyyənləşdirməyə çalışan pedaqoji fikir tarixçiləri (K.D.Uşinski, A.O.Çernyayevski, V.A.Suxomlinski, M.Qorki, A.Linkoln, M.A.Şahtaxtlı, M.T.Sidqi, E.Sultanov, C.Məmmədquluzadə, M.S.Ordubadi, N.Nərimanov, H.Cavid və b.) pedaqoji irsdəki qabaqcıl ideya, fikir və təcrübələri ailəyə, məktəbə, ictimaiyyətə gətirməyi qarşılarına məqsəd qoymuşlar. Maarifçiliyin formalaşması və inkişafında özünəməxsus xidmətləri olmuş bu görkəmli söz sahibləri təhsilin prinsipləri, tərbiyə üsulları, əxlaq, vətənpərvərlik, mənəviyyat, bədii zövq və s. kimi zəruri məsələlərdən bəhs etmişlər. Onların qarşıya qoyduğu əsas məqsəd xalqı maarifləndirmək, "bəsirət sahibi etmək" və uşaq tərbiyə etmək ideyası olmuşdur. Salnamə sahiblərinin yaradıcılıqları bir daha onu təsdiqləyir ki, onlar ötüb keçənlərə deyil, dünəndən bu günə baxmış, sanki dünəni bugünləşdirmiş, dünənə bu günün çalarlarını əlavə edib sabaha apararaq əbədiləşdirirlər.

Yeddi il sürgün həyatı yaşamış və Roma imperatoru Neronun müəllimi olmuş görkəmli filosof Seneka (e.ə. 4-65) şəxsi təcrübəsinə söykənərək yazırdı ki, *"nümunələr yolu yaxın və gerçəkdir, nəsihətlər yolu isə uzaq və qeyri-həqiqətdir"*. Çünki uşaqların mücərrəd təfəkkürləri tam formalaşmadığına və yaxud həyat təcrübələri bəsit olduğuna görə görüb-götürməyə, təqlidə daha çox meyiledici olurlar. Bu baxımdan, tərbiyəçilər (valideynlər, müəllimlər və s.) əqli-idrak təfəkkürləri ilə uşaqlara, eləcə də məktəb şagirdlərinə əyani nümunə olmalıdırlar. Bilməlidirlər ki, onların hər bir işi və əməli təsir vasitəsidir.

"Pedaqoji fikir tarixindən" adlı əsərin ilk səhifəsi ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun (Uilyam Linkoln) müəlliminə yazdığı əxlaq kodeksi daşıyan məktubla başlayır. Məktubda oxuyuruq ki, ata məktəb həyatının ilk günündən oğlunu müəllimə əmanət edir. Ata istəyir ki, müəllim oğluna dürüstlüyü və ədalətli olmağı öyrətsin. Ona qısqanclığın pis bir mərəz olduğunu anlatsın. Müəllimdən oğluna *"səssiz gülüşün sirlərini" öyrətməyi,* həmçinin *"kitabları sevməyi, kitabların möcüzəli bir nemət olduğunu"* [1, 3] aşılamağı arzulayır. Avraam Linkoln müəllimdən oğlunun təbiətə vurğun olmasını sevdirməyi istəyir. İstəyir ki, oğlu təklikdə olan zaman göydəki quşların, çəmənlikdəki güllərin daxili sehrinə enməyi bacarsın. Ata müəllimdən oğluna məktəbdə səhv etməyi hiylə işlətməkdən daha şərəfli oduğunu bildirməyi istəyir. Ata məktubda yazır: oğluma öyrət ki, fikrinin üstündə möhkəm olsun, nəzakətli insanlara qarşı nəzakətli, kobudlara qarşı kobud olsun. Oğluma bildir ki, qazanılan bir dollar tapılan beş dollardan daha dəyərlidir. Linkoln yazır ki, oğluma insanlara qulaq asmağı, qulaq asdıqlarını həqiqət ələyindən keçirib, ancaq yaxşıları özünə götürməyi, həmçinin kədərləndiyi zaman necə gülə biləcəyini öyrət. Bütün bunlarla yanaşı, Linkoln istəyir ki, müəllim oğluna əgər oğlu haqlıdırsa, dimdik ayaqda qalıb mübarizə aparmağı, səbirsiz olacaq qədər cəsarətə sahib olmağı, cəsur olacaq qədər səbirli olmağı öyrətsin. Linkoln istəyir ki, müəllim oğluna özünə inamı öyrətsin, çünki özünəinam olarsa, bu yolla onun bəşəriyyətə də inamı daim olacaqdır. Sonda oğluna qarşı müəllimin mehriban olmasını istəyir.

Göründüyü kimi, atanın (və ya valideynin) oğluna əmanət etdiyi müəllim təbii ki, vətənpərvər, mənəviyyatı təmiz, əxlaqı saf, təlim-tərbiyə fəaliyyətində pedaqoji biliyə dərindən yiyələnən, uşaqlarla humanist münasibət quran, səlis və aydın nitqə sahib və s. yüksək keyfiyyətlərə malik nümunə olacaq bir örnəkdir.

Müəllimin rolu təkcə dərs demək və tərbiyə verməklə məhdudlaşmır. Onun cəmiyyətdə rolu böyükdür. Böyük rus pedaqoqu K.D.Uşinski bu münasibətlə yazırdı: *"Əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, müəllimlərə uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla bərabər öz vətənimizin gələcəyini etibar edirik"*.

Tərbiyənin məqsədinin gələcəyə yönələn olması ilə əlaqədar müəllimin də fəaliyyəti, ilk növbədə, tərbiyə etdiyi şəxsiyyətin gələcəyinə yönəldilir. Başqa sözlə desək, müəllimin fəaliyyəti şagirdlərin təlim-tərbiyəsinin gələcək nəticəsinin bu gün məqsəd kimi qarşıya qoyulub, gələcəyə istiqamətlənən olması ilə səciyyələnir. Müəllim gələcək cəmiyyətin qurucusu kimi onu indidən qurur, yaradır. Bu isə olduqca ağır və

çətin iş olub, əsl ustalıq, yaradıcı yanaşma tələb edir.

İnsana həyat verən, onun ağlına, ruhuna, qəlbinə işıq salan müəllimdir. Avraam Linkolnun oğlunun müəlliminə yazdığı əxlaq kodeksi daşıyan məktubunu oxuduqdan sonra belə nəticəyə gəlirik: Müəllim yaradıcı olsun, müəllim hazır göstərişlərlə yox, hər bir konkret halda qarşıya çıxan problemlərə müstəqil və yaradıcı yanaşsın. Sinifdə və ya auditoriyada düşdüyü qeyri-standart vəziyyətdə düzgün qərarlar qəbul etsin. Müəllim həqiqi biliklə yanaşı, müasir həyatın Sokratı olsun. Çünki bu gün müasir məktəbə və dərsə verilən müasir tələblərlə yanaşı, yaradıcı, tədqiqatçı müəllim də lazımdır.

Tərbiyə işi planlı və mütəşəkkil, məqsədyönlü şəkildə ailədə və məktəbdə aparılarsa, onda təlim-tərbiyə işinin səmərəsi və keyfiyyəti xeyli yüksələr. "Ürəyimi uşaqlara verirəm" adlı əsərin müəllifi Suxomlinski də uşaqları xalqın ümidi, canı, ürəyi adlandırır və onların oxumasını, ədəbə, pak əxlaqa sahib olmalarını zəruri sayırdı. Bu kimi qeydə qalmağın ən balaca məqsədini isə valideynlərin özlərinin elmli, təhsilli olmasında görürdü. Görkəmli pedaqoq valideynlərdən uşaqlarda elmə maraq oyatmağı tələb edir və deyirdi ki, ən yaxşı ailə odur ki, övladını məktəbə verib oxutdurur. Yox, əgər buna laqeyd yanaşıb, övladının oxumasına maraq göstərmirsə, inanın ki, o valideyn qəbir evində də rahat yata bilməyəcəkdir. Valideynin öz övladlarının tərbiyəsi üçün böyük məsuliyyət hiss etməsi uşaqların ailədə düzgün tərbiyə almaları üçün əsas şərtdir. *"Hər şeydən əvvəl, uşaq qəlbinin istəyini başa düşmək lazımdır"* [1, s.61] qənaətində olan Suxomlinski yazırdı ki, "uşaq öz-özlüyündə sevinc mənbəyi ola bilməz: ata və ananı yeni əsasda təkrar edən insanda ata və ana üçün sevinc mənbəyi hər şeydən əvvəl onların ona [uşağa-K.C.] nə verə bildikləridir". Bu mənada tərbiyə üçün məsuliyyət hiss edən valideynlər öz övladlarında nə kimi keyfiyyətlər tərbiyə etmək lazım olduğunu aydın surətdə dərk edib, bu keyfiyyətlərin ardıcıl tərbiyəsinə çalışmalıdırlar. Çünki bu məsuliyyət hissi onları uşaqlarının təlim və tərbiyəsini nəzarətsiz buraxmağa qoymur, tərbiyə işində təsadüf etdikləri çətinlikləri aradan qaldırmaq üçün yaxşı uşaqlar tərbiyə etmiş başqa ailələrin təcrübəsini öyrənməyə, öz hərəkətlərini diqqətlə nəzərdən keçirtməyə məcbur edir. Tərbiyə işi üçün məsuliyyət hiss etməmək çox müxtəlif şəkillərdə ifadə olunur. Bəzi valideynlər öz övladlarından nə kimi adam yetişdirmək məsələsinə tamam laqeyd yanaşaraq, onların tərbiyəsi ilə məşğul olmaq üçün özlərinə heç bir zəhmət vermirlər. Bizim üçün hər bir uşağın taleyi əzizdir, onun taleyinə biganə qalmaq, öz valideynlik vəzifəsinə məsuliyyətsiz yanaşmaq halları cəmiyyət tərəfindən kəskin tənqid olunur. Hələ bu da azdır, uşağın düzgün inkişafı keşiyində duran qanunlar valideynləri öz övladlarının tərbiyəsi üçün məsuliyyət daşımağa məcbur edir. Əgər bir çox valideynlər öz ömürgünlərini qəflətdə keçirdiklərini gec də olsa anlayıblarsa, artıq bu gün övladlarından yaxşı adam yetişdirmək üçün belə valideynlər özlərinə qarşı çox tələbkar olurlar. Şəxsi nümunənin tərbiyədə həlledici rol oynadığı məlum həqiqətdir. *"Uşaqlıq – dünyanın gündəlik kəşfidir"* [1, s.50] fikrini irəli sürən Suxomlinski qeyd edir ki, "vəzifəmiz gəncləri ilk gündən elə tərbiyə etməkdir ki, onlar bir-birinə sevinc bəxş etməyi bacarsınlar, onlar unutmasınlar ki, insanın doğulması ilə gələcək doğulur. Məhəbbət, nikah, doğum insan fəaliyyətinin ən zərif, ən incə, ən müqəddəs sahəsidir. Qolları arasında körpəsinə süd verən, beşik başında dayanan ana öz postunda növbə çəkən əsgərdir. O, gələcəyi yaradır və onu qoruyur. Ana dövlətin xidmətçisidir".

"Ana" adlı romanı ilə özünə ölməzlik qazandıran Maksim Qorki *"kitablar məndə həyatın bütün şər əməllərinə şəxsi məsuliyyət hissi tərbiyə edərək, bəşər zəkasının yaradıcı qüvvəsi qarşısında müqəddəs pərəstişkarlıq duyğusu yaratdı"* [1, s.128] deyərək, valideyn-övlad tərbiyəsində şəxsi nümunəyə çox böyük dəyər vermişdir. Həmçinin yazıçı qeyd edir ki, yaşadığımız dövrdə övladlarının sağlam ruhda tərbiyəsi qeydinə qalmayan məsuliyyətsiz valideynlər, yaramaz hərəkətləri ilə uşaqlarına mənfi nümunə göstərən, cahil ata və analar da yox deyildir. Bildiyimiz kimi, uşaqların da psixoloji xüsusiyyətləri elədir ki, onlar nümunələri nəsihətlərdən daha tez və asan qəbul edirlər. Çünki canlı nümunə sözlə ifadə edilən uzun-uzadı nəsihətlərdən daha konkret və daha təsirlidir. Bütün bunları hər bir valideyn rütbəsindən asılı olmayaraq nəzərə almalı və öz hərəkətlərini daim nəzarət altında

saxlamalıdır. Biz övladlarımızı yalnız sevməklə, əzizləməklə kifayətlənə bilmərik. M.Qorki gözəl qeyd edir ki, *"övladı sevmək asandır, toyuq da öz balasını sevir. Lakin övladı tərbiyə etməyi bacarmaq insandan istedad və zəngin həyat biliyi tələb edən böyük dövlət əhəmiyyəti olan bir işdir"*. Burada nə sevərkən, nə də tələbkarlıq göstərərkən ifrata varmaq olmaz. Valideyn çalışmalıdır ki, onun övladı heç kəsə xeyir verməyən şumlanmamış xam torpaq olmasın.

"Pedaqoji fikir tarixindən" adlı əsərinə bir daha nəzər salan zaman görürük ki, Məhəmməd Tağı Sidqi də fikirlərində *"hər bir valideyn öz uşağının tərbiyəsi ilə məşğul olmağa bütün məsuliyyəti ilə borcludur"* qənaətinə gəlmişdir. Daha sonra qeyd edir ki, *"övlada əvvəl təlim və tərbiyə verən anadır. Anaların rəftarı və kirdarı, hal-hərəkəti balaların qəlbinin aynasına əks salır. Elmli və mərifətli analar süd verən vaxtdan başlayıb, övladının təlim və tərbiyəsi ilə məşğul olurlar"* [1, s.185]. Beləliklə, hər bir ata-ana valideynlik borcunu ödəməli, uşağını cəmiyyətin yararlı üzvü kimi tərbiyə etməli, aqibəti ilə maraqlanmalıdır. Əxlaqi cəhətdən möhkəm olan namuslu vətəndaşlar tərbiyə etmək üçün maarifçi pedaqoq, yuxarıda qeyd etdiyimiz kimi, anaların özlərinin qüsursuz olmalarını, onların müəyyən qədər pedaqoji biliklərə yiyələnmələrini zəruri hesab edirdi. Görkəmli pedaqoq M.T.Sidqi istəyirdi ki, valideyn qarşısında duran çətin, eyni zamanda şərəfli və məsuliyyətli vəzifələr mümkün qədər inandırma, şəxsi nümunə əsasında həyata keçirilsin. Yenə də bütün bu qeyd olunan keyfiyyətlərin isə ancaq və ancaq elm yolu ilə, təhsil yolu ilə əldə ediləbiləcəyi qənaətinə gəlmişdir.

Sidqini özünə mənəvi ata sayan Cəlil Məmmədquluzadə də müəlliminin səsinə səs verərək qeyd edir ki, ailə tərbiyəsinin yaxşılaşması üçün Azərbaycan qadınlarının savadlanması, elm, təhsil almaları zəruridir. Böyük demokrat yazır ki, *"bizim gələcək inkişafımız uşaqların yaxşı tərbiyə olunmasından çox asılıdır. Hər bir millət üçün nicat yolu tapmaq balaca uşaqları məktəbə göndərib tərbiyə verməklə əmələ gəlir. Əgər belə olmasa, heç bir şey fayda bağışlamaz"*.

Görkəmli müəllim-pedaqoq Hüseyn Cavid də "Həsbi-hal" adlı əsərində məktəb və ailə tərbiyəsinə olduqca böyük əhəmiyyət verərək uşağın tərbiyəsində, ilk növbədə, ata və anaların böyük rol oynadığını göstərir. O yazırdı ki, uşaq dünyaya gəldiyi gündən məktəb yaşına qədər ata-anasının yanında ev tərbiyəsi, ailə tərbiyəsi alır. Onun fikrinə əsasən, ailə tərbiyəsində ata və anaların ən ümdə vəzifələri uşaqlarının sağlam böyüməsinə şərait yaratmasıdır. Bir çox uşaqlar anadan xəstə doğulur və xəstə bir vücud ilə "tərki-həyat" olurlar. H.Cavid bu xəstəliyin səbəbini ata və anadan başqa heç kəsdə aramır. Çünki bir çox xəstəliklər irsi olaraq yayılır. Uşaqlarda bu xəstəliklərə, fəlakətlərə yol açan isə ilk növbədə, analardır. Çünki uşaq, ana "rəhminə" düşdüyü zamandan başlayaraq, doqquz ay ananın qanı ilə, sonra südü ilə qidalanaraq xəstəliklərə düçar olurlar. Cavid qeyd edir ki, "biçarə məsum" böyüdükcə vücudundakı təhlükəli xəstəliklər də onunla bərabər böyüməyə başlayır. Bir çox uşaqlar da olur ki, ata-anasından qorunmayaraq yeyəcəyi, içəcəyi, geyəcəyi üzündən xəstələnir, tənəffüs etdiyi hava, hərəkətsizlik və s. valideynin qayğısızlığı ucbatından səhhətinə mənfi təsir göstərmiş olur. Eyni zamanda pedaqoq qeyd edir ki, hər şeydən əvvəl uşaqların düzgün qidalanmasına diqqət yetirmək lazımdır. Çox yemək sağlamlığa ziyan verdiyi kimi, az yemək də faydalı deyildir. O, valideynlərə öz uşaqlarına qarşı son dərəcə diqqətli olmağı, uşağı nəzarətsiz buraxmamağı, ədəbsizlik etməyə qoymamağı, ərköyünlüyə öyrətməməyi tövsiyə edirdi. Bu vəzifələrin həllində görkəmli pedaqoqun irsiyyət amillərinin rolunu görməsi və düzgün elmi nəticələrə əsaslanması təqdirəlayiqdir.

H.Cavid valideynlərin öz körpələrini "məvhumi" qüvvələrlə hədələməsini, qorxu içində yaşatmasını pisləyirdi. Belə ki, uşaq iki-üç yaşlarında qaranlıq guşəyə gedəndə valideynləri tərəfindən cinlər, divlər, ifritələr vasitəsilə qorxudulur, təhdid edilir. Biçarə, zavallı körpənin isə bütün mənəviyyatı alt-üst olur. Otuz yaşına gələndə belə uşaqlıqda keçirtdiyi o qorxunc kölgələri bir "türlü başından çıxara bilmir". H.Cavid ailələrdə tərbiyənin bu cür qurulmasına qəzəblənərək kinayə ilə belə qeyd edir: *"...Ev tərbiyəsinin doğurduğu ən gözəl tərbiyə, ən xoş əxlaq yalançılıq, kindarlıq, bədnəfslik, arsızlıq, itaətsizlik, qorxaqlıq kibi bir taqım rəzil, murdar əxlaqsızlıqlardan ibarətdir"* [1, s.232].

Şair-pedaqoq hər bir hərəkətin tərbiyə ilə

bağlı olduğunu qeyd edir. Onun fikrincə, hələ kiçik yaşlarından uşağa verilən düzgün tərbiyə uşağın gələcək inkişafının əsasını təşkil edir. Ailə tərbiyəsindəki bir başqa qüsuru belə işıqlandırır: "Bir ana oğluna "Yavrum! Quzum! Get qardaşını çağır da gəlsin, yeməyini yesin" deyəcəyi yerdə, "Partdamış! Gəbərmiş! Get o qan qusmuş cönənbəri çağır da gəlsin, zəhrimarını zoqqumlasın", deyir".

Hüseyn Cavidin haqlı fikrincə, ata və anaların gözəl, mənəvi sifətlərə malik olması uşaqların düzgün tərbiyəsinə təsir edir. Övladlarının tərbiyəsi ilə məşğul olmayan valideynlər isə sabahkı gün öz "cigərguşələrinin zillət, fəlakət odunda yanıb-qovrulduqlarını" ağlaya-ağlaya seyr edəcəklərini şair qeyd edərək yazır: *"Bu gün azacıq təbiətə qarşı durub övladını tərbiyədən məhrum buraqanlar, yarınki gün cigərguşələrinin zillət, fəlakət odunda yanıb-qovrulduqlarını ağlaya-ağlaya seyr edəcəklər. Cocuqlar məsumdurlar, onunçin etdikləri işlərin heç birindən məsul deyildirlər, onların hal və hərəkətlərindən məsul olacaq, yalnız ata-analarıdır. Qızını, oğlunu tərbiyə etməkdə müsaməhə (səhlənkarlıq – K.C.) göstərən valideyn qanun və əxlaq nəzərində şiddətlə məsul tutulmalıdır. Çünki cəmiyyəti-bəşəriyyə için müzürr (ziyanlı, zərərli – K.C.) bir adam hazırlamış olurlar. Xeyirsiz, xain, ədəbsiz övlad yetişdirib, onları tərbiyə və islaha çalışmayan ata-analar, şübhəsiz ki, gələcəkdə namuslu, vicdanlı, heysiyyətli insanlara müsəllət olmaq üçün bir sürü əxlaqsız, bir yığın sərsəri yetişdirmiş olurlar. Böylə qeydsiz, tərbiyəsiz ata-ananın nə dərəcə məsul olacağı, nə müdhiş cinayət işləyəcəyi hər kəscə məlum, aydın bir həqiqətdir"* [1, s.233].

**Nəticə.** Beləliklə, təlim-tərbiyə məsələlərində pedaqoji fikrin görkəmli nümayəndələrinin fikirlərinə əsasən, aşağıdakı ümumi nəticəyə gəlirik:

• Pedaqoji fikrin görkəmli nümayəndələri tərbiyə işinə xalq və Vətən işi kimi baxmış, tərbiyə işində nümunənin rolunu, üsul, vasitə və tərzlərini təxirəsalınmaz vəzifə hesab etmişlər;

• Vətənin, xalqın tərəqqisi uğrunda yorulmadan mübarizə aparan pedaqoqlar, ilk növbədə, müəllimin, valideynin yaradıcı olmasını, hazır göstərişlərlə yox, hər bir konkret halda qarşıya çıxan problemlərə müstəqil və yaradıcı yanaşmasını, ailədə, ictimaiyyətdə, sinifdə və ya auditoriyada düşdüyü qeyri-standart vəziyyətdə düzgün qərarlar qəbul etməsini, müəllimi həqiqi biliklə yanaşı, müasir həyatın Sokratı olmasını əsas meyar saymışlar.

• Pedaqoji fikir nümayəndələri ailədə yeni, sağlam, gözüaçıq, mədəni insanlar yetişdirmək işinə mane olan əngəlləri qələmlərinin gücü ilə təsvir etmiş, bu əngəlləri törədən səbəbləri tənqid etmiş, eləcə də onların aradan qaldırılmasının tətbiqi yollarını göstərmişlər.

• Ulu korifeylər mənəvi dəyərləri uşaqların tərbiyəsinin mühüm vasitəsi kimi təhlil etmiş, tərbiyəvi tədbirlər prosesində bu materiallardan istifadə edilməsinin imkan və yollarını müəyyənləşdirmiş, bu sahədə qabaqcıl təcrübə ümumiləşdirmişlər.

• Görkəmli zəka sahibləri uşaqların ləyaqətli vətəndaş kimi formalaşmasında, milli-mənəvi və dini dəyərlər ruhunda tərbiyə edilməsində öz əsərləri ilə zəngin fikirlər və baxışlar müəyyənləşdirmişlər.

• Söz mülkünün sultanları valideyn-övlad tərbiyəsi, yetişən nəslin təhsili, təlimi, onların əxlaqının saflaşdırılması, mənəvi keyfiyyətlərinin yetkinləşdirilməsi, halal əməyə alışdırılması, qeyrətli, namuslu vətəndaşlar kimi yetişdirilməsi ilə bağlı yazılarında məktəb və pedaqoji fikir tarixinin zənginləşdirilməsinə öz misilsiz xidmətləri ilə imza atmışlar.

• Görkəmli pedaqoq və maarifçilər tərbiyənin mahiyyətinə dair müxtəlif fikir və görüşləri ilə aydınlıq gətirmiş, şəxsiyyətin ruhi inkişafına önəm vermişlər.

• Salnamə sahibləri uşaqların tərbiyəsində əsasən, atanın, ananın şəxsi nümunəsinə böyük önəm vermiş, şəxsi nümunələri uşaqlar üçün əyanilik rolu hesab etmişlər.

• Şəxsi nümunələrin təsir dəyərini əvəzedilməz hesab edən əxlaq carçıları valideynləri bütün tərbiyə çalarlarında öz şəxsi nümunələri ilə mənəvi-psixoloji iqlimin yaradılmasına, saflaşmasına öz təsirlərini ifadə edə bilmişlər.

• "Uşaqlar bizim gələcəyimizdir, məbədgahımızdır" deyən pedaqoq və maarifçilər tərbiyə məsələsini ünsiyyət aləmində ən ali və ən mühüm məsələ hesab edərək, insanın xoşbəxtliyini və ya bədbəxtliyini, məhz tərbiyənin yaxşı və ya yamanlığından asılıdır qənaətində olmuşlar.

• Bəhs etdiyimiz mütəfəkkir şəxsiyyətlərin əsərləri mahiyyət, məzmun və məqsəd baxımından dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olan əsərlər kimi əbədiyyən yaşayacaqdır.

## ƏDƏBİYYAT

1. Pedaqoji fikir tarixindən (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Bilik Fondu tərəfindən hazırlanmış kitab). Naxçıvan, Əcəmi, 2019, 288 səh.

K.Jamalov

## Methods, means and styles of education based on a personal example in the pedagogues-educators' creativity

**Abstract**

The article is based on the work "From the history of pedagogical thought by prominent representatives" (views on educational work as a people's and national work, the role of the model in educational work, methods, means and styles, views and views on the work are studied and analyzed. The researcher also emphasizes that the sultans of the word property have an unparalleled contribution to the enrichment of the history of school and pedagogical thought in their writings on parent-child upbringing, education, training of the younger generation, purification of their morals, maturity of moral qualities, halal work, upbringing as zealous citizens, signed with services. The article also analyzes the views of great luminaries on moral values as an important means of educating children, identifies opportunities and ways to use these materials in the process of educational activities, and summarizes best practices in this field.

К.Джамалов

## Методы, средства и стили воспитания на личном примере в творчестве педагогов-воспитателей

**Аннотация**

В основу статьи положен труд «Из истории педагогической мысли» видных представителей изучены и проанализированы взгляды на воспитательную работу как народную и национальную работу, роль модели в воспитательной работе, методы, средства и стили, воззрения и взгляды на работу. Исследователь также подчеркивает, что султаны слова собственность внесли беспримерный вклад в обогащение истории школьной и педагогической мысли в своих трудах о детско-родительском воспитании, образовании, обучении подрастающего поколения, очищении его нравов, взрослении моральные качества, халяльная работа, воспитание рачительных граждан. Также в статье анализируются взгляды великих светил на нравственные ценности как на важное средство воспитания детей, выявляются возможности и способы использования этих материалов в процессе воспитательной деятельности, обобщается передовой опыт в этой области.